

Kənan Hacı

Roman

(əvvəli ötən sayımızda)

*Xalqımızın vaxtilə hərbi təlim və tərbiyədən məhrum edilməsi və rus çarı dəli Pyotrun vəsiyyətnaməsinə uyğun olaraq İran, Rusiya və Türkiyə himayəsinin və nüfuzunun altına keçmədən Qafqazdan əsgər alınması bu əskikliyi doğurmuşdur. Azərbaycan xalqı sizdən yardım gözləyir. Qardaş əlinizi uzadaraq bizə yardım edin, müstəqil olaq. Bizi çəkib özünüzə qatmaq istəsəniz, buna razı olmayacağıq.*

***Bu məqamda Tələt Paşanın üzündən siyasətçiyə məxsus olan bir təbəssüm dalğası keçdi və dönüb yanında oturanlara baxdı:***

***-Baxın, ilhaqı nə gözəl anladır.***

***Nağı bəy bir anlıq danışığını kəsib dinləyənləri gözdən keçirdi, bu məqamda çıxışının onlarda necə təəssürat oyatdığını bilmək istəyirdi. Dərin düşüncələrə dalmışdılar. Tələt Paşa sükutdan diksinən kimi oldu. "Davam edin" – dedi. Nağı bəy sözünə davam etdi:***

-Bizə böyük hərbi qüvvə göndərməyin. Hərbi mütəxəssis və çavuş kadrlar göndərin. Az bir zamanda böyük hərbi qüvvə qurmaq imkanımız vardır. Türk olduğumuz üçün istənilən qüvvə qanımızda mövcuddur. Xalqımızın milli gücünə inanaraq az bir zamanda rusları torpaqlarımızdan təmizləyib ata bildik.

Nağı bəy sözünü bitirib həyəcanla Tələt Paşanın nə söyləyəcəyini gözləməyə başladı. Tələt Paşa hələ də düşüncə dəryasında idi. Araya ağır sükut çökdü. Handan-hana Tələt Paşa masadan dikəlib kürəyini kresloya söykədi.

-Əfəndim, dünən firqə mərkəzində bu məsələni müzakirə edirdik. Xəlil bəy nəyin bahasına olursa-olsun, hər fədakarlığa qatlaşıb Qafqazda bir islam dövləti qurmamızı müdafiə edirdi.

Nağı bəy söhbətə müdaxilə etdi:

-Bəli, biz islamıq, ancaq türk olduğumuzdan Milli Türk hökuməti qurulmasını düşünürük və istəyirik.

Tələt Paşanın üzündə məmnunluq ifadəsi vardı.

-İnşallah, bunu edəcəyik! Biz sizin yanınızdayıq! Heç narahat olmayın.

Nağı bəylə Ömər Faiq Əfəndinin üzərindən elə bil ağır yük götürüldü, hər ikisi dərindən nəfəs alıb xoşbəxtcəsinə gülümsədilər. Onların missiyası uğurla başa çatmışdı.

### IX fəsil

**O bəhri-cəzbdə kim, könlüm iztirabə gəlir,**
**Gövhər dəruni-səbəbdən çıxıb hübabə gəlir.**

*Şeyx Qalib*

Yarıqaranlıq kitabxananın qalın divarları cildlənmiş qədim kitabların üzünə oxşayırdı.Kip bağlanmış taxta pəncərələrin qalın, sumağı rəngli pərdələri arasından sızan işıqlara dəniz səmtdən əsən sərin küləklərlə birgə top, mərmi səsləri də qarışanda həyəcandan az qala ürəyi dayanacaqdı. Kor kitabxanaçı qaranlığa qarışıb yoxa çıxmışdı. Haşım bəy ona vacib bir kitabı sifariş vermişdi, qoca isə hələ də kitabların içində eşələnirdi. Amma sükut qədim-qayım yerindəydi, səs-səmir yox idi. Kitablar əsgərlər kimi sıraya düzülüb sükuta keşik çəkirdi. Pərdələr arasından sızan işıq zolağında toz zərrəcikləri oynaşırdı. Çöldəki səslər sükutu cırmaqlamağa başladı. Haşım bəy qorxurdu ki, bu qoca kitabxanaçı həmin sirli kitabı ona verməmdən çöldəki hay-küyün cazibəsinə qapılaraq verdiyi vədi unudar. Hələ üstəlik, onu çölə çıxarıb kitabxananın qapısını kilidləyə də bilərdi. Qırımından görünürdü ki, vəd versə də ona çox etibar etmir.

Qocanın səsi onu diksindirdi:

-Bura bax, bəlkə səni bolşeviklər öyrədib bura göndərib? Hə?

***Ətrafa göz gəzdirdi, qoca görünmürdü. Həzrət Əli ziyarətgahında və Qızılqum bağlarında yazılmış sətirlərin sirli dünyasında yuxulu gəzintilərin həyəcanı hələ də canında idi. Qoca əlindəki qalın, cildi ovulub tökülməkdə olan məxmər üzlü kitabı şəbəkəli pəncərənin altındakı kətilin üstünə qoydu.***

***-Otur burda, oxu. Çölə çıxmaq olmaz. Ruslar gələnə qədər nə oxuya bilsən, qazancındır. Onlar əvvəl-axır gəlib buranı da dağıdacaqlar.***

Qocanın ətraf aləmlə əlaqələri çoxdan kəsilmişdi, bu kitabxananın o üzündə nələr baş verdiyindən, hansı proseslərin getdiyindən xəbərsiz idi. O, ermənilərin bu şəhərdə hansı vəhşiliklər törətdiyini gözləriylə görmüşdü. Onlar kitabxanaçının yeniyetmə oğlunu gözlərinin qabağında doğramışdılar, arvadının kürəyinə qaynar samovarı bağlayıb işgəncə verə-verə öldürmüşdülər. Qoca özünü həyətə yetirincə iş işdən keçmişdi.Tövlədəki qəməni qapıb ermənininin kürəyinə saplamışdı. Dığalar öküz kimi bağıran erməninin hayına gəlincə qoca yağlı əppək olub göyə çəkilmişdi. Həmingündənonu gördüm deyən olmamışdı. Kişi uzun illər idi ki, bu kitabxanaya sığınmışdı, burdakı qədim kitablərdəki sirləri qoruyurdu. O, sanki barama kimi öz içində məhbus olmuşdu.

-Bilirsən də, şəhərləri işğal edən qəsbkarlar birinci kitabxanaları yandırırlar. İsgəndərin "Avesta"nı yandırması heç bilirsən bəşəriyyətə nə boyda ziyan vurub? Sibilli kitabələri Apollon rahibləri tərəfindən məhv edilib, Əndəlus kitabxanasını ispanlar yandırıb külünü göyə sovurublar. O kitabxanalar yandırılmasaydı, bəşəriyyətin tarixi başqa istiqamət üzrə gedərdi. Sənin məndən istədiyin kitabda çox sirlər yatır. Əgər oxuya bilsən...

***Qoca bic-bic güldü. Bu gülüş isbat edirdi ki, o, çox sirlərdən agahdır. Haşım bəy kitabı açdı, heç nə oxuya bilmədi. Kitab onun bilmədiyi bir dildə yazılmışdı, vərəqlərin kənarında ərəbcə cümlələr yazılmışdı. Qocanın dediyinə görə bu kitab xaçlıların İstanbul kitabxanasını yandırdığı vaxt tam təsadüf nəticəsində xilas olub. Kitab bir dərvişin əlinə keçib və dərviş də onu qoruyub saxlayıb.***

-Bəs bu kitab bura necə gəlib çıxıb?

Qoca kitabxanaçı Haşım bəyin sualını sanki heç eşitmədi. Gözləri sanki sirrin pərdəsi idi, şair o gözlərdə heç nəyi oxuya bilmədi. Ona elə gəldi ki, əlindəki sirli kitabı elə bu qoca özü yazıb. Vərəqlərdən birinin kənarında bu sözlər gözünə sataşdı: "Vəqti sakın kim, vəqt əzizdür, fövt olmasun". Qoca sanki gözləriylə ona bunu demək istəyirdi. Başını qaldırıb qocaya baxdı, qoca gülümsədi, sanki onun kitabdan oxuduğu cümləni o da oxumuşdu. Deyirdilər zaman gələcək, insanların danışmasına ehtiyac olmayacaq, onlar bir-birlərini üzlərindən oxuyacaqlar. Haşım bəyin vücudundan üşütmə keçdi. Axı bu qoca kitabxanaçı kor idi, bəs bu kitabı necə tapıb gətirdi? İndi də gözlərini ona zilləyib elə baxır ki, bu baxışlar şairin daxilinə nüfuz edirdi. "Vəqti sakın kim, vəqt əzizdür, fövt olmasun". Bu cümlənin buruluğanına düşmüşdü, fikirləri ox kimi bu cümlənin ətrafında dolanırdı. Bu qocanın ruhu kimə tabedir? Şeytana, yoxsa Allaha? Özünü axmaq vəziyyətə düşmüş kimi hiss elədi. Sanki qocanın qəlbinə girməyə çalışırdı və indi orda görünməz bir divara çırpılıb yerə sərilmişdi. Ürəyi qulağında döyünürdü. Ayağa qalxınca qoca qaranlığa qarışıb qeybə çəkilmişdi. Dörd bir tərəfə göz gəzdirdi, qocanın heç həniri də eşidilmirdi.

***Kitab əlindən yerə düşmüşdü, qaldırıb kətilin üstünə qoydu və kitabı açanda heyrətdən donub qaldı. Hərflər rəsmə bənzəyirdi, sözlər görüntüyə çevrilmişdi. Sanki onun axtardığı sirr ağacın budaqları arasında gizlənmiş tənha meyvə idi. İşıq şüləyi altında hərflər sayrışırdı. Haşım bəy qorxu bilməyən adam idi, içinə dolan hissin adı qorxu deyildi, həyəcan idi.***

Haşım bəy polad kimi sınmaz, əyilməz, sözü düz, şax, mərdanə deyən kişi idi. Onun bu keyfiyyətləri çoxunun, əsasən "lotu" adı ilə meydan sulayanların heç xoşuna gəlmirmiş. Bir gün şəhərdə lotubaşılardan biri ona "ultimatum" göndərir ki, əgər mənə filan qədər pul verməsən, səni öldürəcəyəm. Haşım bəy çox söhbətdən sonra başa düşür ki, bu kiminsə fitvası ilə görülən işdir. Xatırlayırdı, bu vaqeəni Hacı İsgəndərə danışmışdı. Hacı İsgəndər demişdi ki, ona xəbər göndər, səhər gəlib pulu aparsın. Məsləhətləşib qərara gəlirlər ki, lotubaşı tələb etdiyi məbləği sabah gəlib Haşım bəydən, evdən aparsın. Səhəri gün şərtləşdikləri kimi lotubaşı sevincək şairin qapısının ağzını kəsdirir. Haşım bəy onun istədiyi məbləği göstərir və ona bildirir ki, əzizim, bil və yadında yaxşı saxla: pul, mal -dövlət üçün kimisə qətlə yetirən sənin kimilər kişi yox, nakişidir və öz tapançasıyla lotubaşını öldürür. Heç bir vəkilin köməyi olmadan məhkəmədə özü özünü müdafiə edir və bəraət alır.

***Şair qorxmurdu, heyrət içində quruyub qalmışdı. Çün, ömründə belə bir möcüzə ilə qarşılaşmamışdı. Gördüyünü yuxu zənn edirdi. Haşım bəy sadəcə, görürdü ki, hərflər necə sayrışır.Kitabda bu sözlər yazılmışdı: "Göz savaşın xəbərçisidir, baxış isə taledir, İlahi qəzadır. Eşq qəlb ilə göz arasında baş vermiş bir macəradır. Sonu zəfərlə də bitə bilər, məğlubiyyətlə də. Çox sonralar qəlb gözə deyəcəkdi: Məni bu bəlalara sən mübtəla elədin. Səfanı sən sürdün, cəfanı mən çəkdim. Nemət sənin, zəhmət mənim oldu. Sən sevinərkən qəyğılanan, başı dərdə girən mən oldum. Məlik ikən məmlük etdin məni".***

(davamı gələn sayımızda)

#### Müəllifdən

*1918-ci ildə Qafqaz İslam Ordusu Nuru Paşanın komandanlığı altında Azərbaycanın azadlığı uğrunda savaşanda Hacı İsgəndər özünümüdafiə batalyonu yaradaraq ermənilərə qarşı döyüşüb misilsiz fədakarlıq göstərərək Nuru Paşa tərəfindən "Xalq Qəhrəmanı" ordeni ilə təltif edilib. Bolşeviklər hakimiyyətə gəldikdən sonra Hacı İsgəndər daim təqib altında olub. Onu ölümdən o dövrdə Azərbaycana rəhbərlik etmiş Ruhulla Axundov xilas edib. 1937-ci il repressiyası zamanı Ruhulla Axundovla birlikdə Hacı İsgəndər də həbs edilib, həbsdə olduğu müddətdə ona erməni müstəntiqlər tərəfindən amansız işgəncələr verilib. Ağır işgəncələrə dözməyən Hacı İsgəndər həbsxanada vəfat etsə də, onun meyitini ailəsinə verməyiblər. Hacı İsgəndər məzarı olmayan qəhrəmanlarımızdandır. "Hacı İsgəndər" romanı bu böyük türk kişisinin həyat və döyüş yolundan bəhs edir və bu mövzuda yazılan ilk romandır.*

*Hələ uzun illər bundan öncə Buzovna qəsəbəsinin axundu, ilahiyyatçı alim, şair Hacı Soltan Əlizadənin "Azərbaycan dərvişləri və rövzəxanları" kitabında Hacı İsgəndər haqqında məlumata rast gəlmişdim. O zamandan fövqəladə iradəyə, qəhrəmanlıq xüsusiyyətlərinə malik olan bu şəxsiyyətin ömür yolu diqqətimi çəkmişdir. Nə vaxtsa onun haqqında irihəcmli əsər yazacağımı düşünmürdüm. Sonrakı illərdə onunla bağlı xeyli maraqlı faktlar əldə etdim və Hacı İsgəndərin Cümhuriyyət tariximizdə müstəsna rolu, igidliyi, mərdliyi, Nuru Paşa kimi bir sərkərdənin rəğbətini qazanması və faciəli taleyi məni bu əsəri yazmağa sövq etdi. Əlbəttə, bu əsər yazılmazdan öncə Hacı Soltanın təşəbbüsü ilə onun yaşadığı evin qarşısına xatirə lövhəsi vurulub, televiziya verilişlərində haqqında süjetlər gedib, tədbirlər keçirilib. Hacı İsgəndərin geniş xalq kütləsinə tanıdılmasında onun böyük xidmətləri olub. Bu romanın yazılması da Hacı İsgəndərin adının yaddaşlarda qalması üçün növbəti bir təşəbbüsdür. Düşünürəm ki, bu cür şəxsiyyətlər hər zaman xatırlanmalı, onların keçdiyi ömür yolu gələcək nəsillər üçün örnək olmalıdır. Əsəri yazarkən Cümhuriyyət tariximizlə bağlı çoxlu sayda kitablar oxudum, arxiv materiallarıyla tanış oldum, bu da mənə romanı yazmaqda yardımçı oldu. Bu roman tarixi sənədlər əsasında yazılsa da, hər halda bədii əsərdir və yazıçı təxəyyülündən geniş istifadə olunub.*

*Kitabın araya-ərsəyə gəlməsində böyük əməyi olan həyat yoldaşım, filologiya üzrə fəlsəfə doktoru İlhamə Hacıyevaya, Qafqaz Müsəlmanları İdarəsinin Xəzər rayonu üzrə qazisi, tədqiqatçı alim Hacı Soltan Əlizadəyə, Azərbaycan Yazıçılar Birliyinin Xəzər bölməsinin sədri, şair-qəzəlxan Arif Buzovnalıya xüsusi təşəkkürlərimi bildirirəm!*

# Hacı İsgəndər



HAGI İSKƏNDƏR ƏBUZƏR o. 1875-1937